# DÜNYA

№ 30-31
MART - APREL
2019

XƏZƏR UNİVERSİTETİ DÜNYA MƏKTƏBİ



DÜNYA SCHOOL DÜNYA MƏKTƏBİ 1998



# ŞAGİRD QƏBULU

## 2019-2020 TƏDRİS İLİ

**ÖVLADLARINIZIN TƏHSİLİNİ DÜNYA MƏKTƏBİNƏ ETİBAR EDİN.**

QEYDİYYAT ÜÇÜN

TEL: (+99412) 563 59 40/47/48
MOB: (+99470) 844 08 88

SCAN ME


DÜNYA MƏKTƏBİ
hp

# 30/31 BU NÖMRƏDƏ







08 RUSİYA TƏHSİL EKSPERTLƏRİ MƏKTƏBDƏ

10 İFTİXARLI MƏZUNLAR

34 RİYAZİYYAT AÇIQ SƏMA ALTINDA

06 HAMLET İSAXANLI İLƏ GÖRÜŞ

16 QALİBLƏR

18 ELEVATOR PITCH

30 ВПЕРЁД К ПЯТЁРКАМ

32 THE PI DAY

38 TƏQVİM



ÜZ QABIĞINDA: MƏZUNLARIMIZ - ESMİRALDA ŞİRİNOVA TOĞRUL MƏMMƏDOV

BAŞ REDAKTOR
**NAİLƏXANIM İSAYEVA**

REDAKTOR
**AFAQ QƏMBƏROVA**

REDAKSİYA HEYƏTİ
**MƏRUFƏ MƏDƏTLİ**
**LEYLA CƏBRAYILOVA**
**RƏNA HƏSƏNOVA**

KORREKTOR
**AYDIN QƏNBƏROV**

RƏSSAM
**MİR RAFİQ ƏBDÜLRƏHİMOV**

DİZAYNER
**NİCAT NAĞIZADƏ**

FOTOQRAF
**NURANƏ HƏSƏNOVA**
**NİGAR FƏRMANOVA**

XƏZƏR UNİVERSİTETİ NƏŞRİYYATI

# 2019








44 BEYNƏLXALQ UŞAQ KİTAB GÜNÜ

22 DÜNYA MƏKTƏBİNDƏ TƏCRÜBƏ

51 ÜMUMDÜNYA SAĞLAMLIQ GÜNÜ

20 POEZİYA

24 İNTO ORBİT

47 PUBLIC SPEAKING COMPETITION

46 EARTH DAY

48 “GƏNC ŞERLOK” RƏSM MÜSABİQƏSİ

54 GÖRMƏ - MOTOR BACARIQLARI XƏYAL GÜCÜ

2015-ci ilin
yanvar ayından çıxır

DÜNYA
JURNAL

2019
№ 30-31

Bakı, Əcəmi Naxçıvani 9
Tel.: (012) 563 59 40 / 47 / 48
Mob.: (070) 844 08 88

E-mail: info@dunyaschool.az
http:// dunyaschool.az







# “İKİ DÜŞÜNCƏ MƏDƏNİYYƏTİ: DİVARLAR VƏ KÖRPÜLƏR”

DÜNYA Məktəbində Riyaziyyat elmləri doktoru, professor Hamlet İsaxanlı ilə mütəmadi görüşlər təşkil edilir. Görüşlər zamanı alim auditoriya ilə elmi, fəlsəfi, bədii və s. mövzularda söhbətlər qurur və maraqlı müzakirələr keçirilir.

Professor Hamlet İsaxanlı ilə bu dəfəki görüş “İki düşüncə mədəniyyəti: divarlar və körpülər” mövzusunda idi.

Hamlet İsaxanlı təbiət elmləri və humanitar sahələrdə yaradıcı fəaliyyət göstərən insanlar, onların düşüncə tərzi, fərqlər və oxşarlıqlar haqqında ətraflı məlumat verdi.










Alim bu məsələdə tarix boyu təhsilin rolundan və hər iki sahədə fəaliyyət göstərənlər (çoxbilginlər/polimatlar) mövzusunda danışdı.

Son dərəcə maraq doğuran bu görüşdə professor Hamlet İsaxanlı DÜNYA Məktəbinin müəllim və şagirdləri ilə bərabər Bakının 284 saylı orta ümumtəhsil məktəbinin də şagird və müəllim kollektivi iştirak edirdi. Görüşün sonunda Hamlet İsaxanlı iştirakçıları maraqlandıran sualları cavablandırdı.







# RUSİYA TƏHSİL EKSPERTLƏRİ DÜNYA MƏKTƏBİNDƏ




DÜNYA Məktəbi DÜNYA MƏKTƏBLƏRİ İLƏ BEYNƏLXALQ ƏLAQƏLƏR YARADIR

Dünya Məktəbində Rusiya təhsil ekspertləri ilə rəhbərlik və pedaqoji kollektiv arasında "Müasir dövrdə təhsilin inkişaf perspektivləri" mövzusunda geniş təcrübə mübadilələri aparıldı.

Moskva şəhər Təhsil Departamentinin müdir müavini Alyona Şaxova, Təhsil İnfrastrukturunun İnkişafı idarəsinin rəhbəri Anna Fokina və peşəkar təhsil mütəxəssislərinin iştirak etdiyi tədbirdə maraqlı təkliflər irəli sürüldü.











# Məktəblər bir birindən öyrənir

Təsisçi Nailəxanım İsayevanın iştirak etdiyi bu görüşdə gələcəkdə Moskva məktəbləri ilə Dünya məktəbi arasında əməkdaşlıq əlaqələrinin təşkili haqqında məsələlər müzakirə edildi.



Görüş zamanı nümayəndələr məktəbi gəzərək onunla yaxından tanış oldular. Nümayəndə heyətinin təhsilin və tədrisin təşkili ilə bağlı sualları məktəbimizin əməkdaşları tərəfindən cavablandırıldı.

**ESMİRALDA ŞİRİNOVA**

Southampton universitetinin məzunu (İngiltərə)

Yaşadığı şəhər London



"AZƏRBAYCANDAKI İNSANLARIN YAŞAYIŞINA KÖMƏK EDƏ BİLƏCƏK ƏLİMDƏN GƏLƏN HƏR ŞEYİ ETMƏK İSTƏYİRƏM

## DÜNYA MƏKTƏBİNİN İFTİXARLI MƏZUNLARI!

**TOĞRUL MƏMMƏDOV**

New Castle universitetinin məzunu (İngiltərə)

Yaşadığı şəhər New Castle



ARZUM BAKIYA QAYIDIB, ÖZ ŞƏHƏRİMDƏ MEMARLIĞI İNKİŞAF ETDİRMƏKDİR"



***Şirin, qayğısız, bir az kövrək, bir az həyəcanlı, xatirələrlə dolu olan məktəb illərini də unutmaq olmur, oxuyub boya-başa çatdığın, səni yetişdirən məktəbi də… Elə onlar da hər dəfə bu hiss və duyğularla uzaq-uzaq yerlərdən Bakıya döndükləri zaman mütləq məktəbə baş çəkirlər. Müəllimlərlə görüşür, ötən illərdən, yaddaşlarına həkk olunan xatirələri yenidən yad edirlər.***

***DÜNYA Məktəbinin iftixarlı məzunları bu dəfəki gəlişlərində redaksiyamızın da qonağı oldular. Onlarla xeyli söhbət etdik. Müsahibəmizi sizinlə bölüşmək istəyirik, əziz oxucular!***



-DÜNYA

-Sizi məktəbdə görmək çox xoşdur. Doğma ölkənizə, şəhərinizə gəlmisiniz və məktəbinizi də ziyarət etməyi unutmamısınız. Elə buradan da başlayaq söhbətə… DÜNYA Məktəbinin həyatınızdakı rolunu necə dəyərləndirirsiniz?

-ESMİRALDA

-Məktəb hər insanın həyatında rol oynadığı qədər, mənim də həyatımda rol oynayıb. İnsana məxsus hiss və həyəcanlarımın əksəriyyətini əsasən, məktəbdə yaşamışam. İlk “5”–in uğur sevincini, ilk dostluğu, ilk sevgini, məsuliyyəti, insanlarla ünsiyyəti, aşağı qiymət alandaruhdan düşməməyi, daha artıq çalışmaq əzmini və s. kimi duyğuları məktəbdə dadmışam. Ona görə də məktəb mənim üçün təhsil ocağından əlavə, həyatın qısa prototipidir, desəm, daha doğru olar.

Məktəb hər bir insanın düşüncəsinin, xasiyyətinin təməlinin qoyulduğu yerdir. Buna görə atdığım hər addımda, verdiyim hər qərarda məktəbin rolu böyükdür.

-TOĞRUL

-Hər insanın oxuyub-bitirdiyi məktəb onun həm təhsilində, həm də şəxsi həyatında böyük bir rol oynayır, çünki o ***məktəb səni insan kimi formalaşdırır və DÜNYA Məktəbi də bunu çox möhtəşəm şəkildə etdi.***

Ümumiyyətlə, DÜNYA Məktəbi bizi bir çox müasir problemlərə hazırlaşdırıb və düzgün yola yönəldib. Bitirdikdən sonra artıq sən müxtəlif cür problemlərə adaptasiya oluna bilirsən.

-DÜNYA
-Məktəblə bağlı xatirələriniz?!
-ESMİRALDA
-O qədər xatirələrimiz varki... Sinif yoldaşlarımızla daim görüşürük və üzərindən 5 il keçdiyinə baxmayaraq yaddaşda iz qoyan xatirələri danışırıq. Geriyə dönəndə yalnız pozitiv şeylər yada düşür.
-TOĞRUL
Məktəblə bağlı çox xatirələrim var, çünki ömrümün 11 ili orada keçib. Çoxlu dost-tanışlarım var. Bu gün də keçmiş sinif yoldaşlarımla görüşəndə çox hadisələri yad edirik.
-DÜNYA
-Məktəb təhsilinizi nə dərəcədə mükəmməl hesab edirsiniz və bunda məktəbinizin rolunu nə qədər dəyərləndirirsiniz?
-ESMİRALDA
-Əlbəttə, ilk növbədə, ali təhsil müəssisəsinə qəbul olmaq, sonra da orada yüksək səviyyədə təhsil almaq üçün məktəb körpüdür. Körpünün də təməli nə qədər möhkəm olarsa, uğur qazanmaq şansı da artıq olar. Burada IB təhsilimi vurğulamadan keçə bilmərəm. Azərbaycan təhsili stilinə görə Avropadan fərqlənir və təhsili davam etdirmək üçün oraya gedəndə müəyyən çətinliklər yaranır. IB qərb təhsil sistemi olduğu üçün bu keçidi asanlaşdırır.
-TOĞRUL
-Əlbəttə ki, çox yüksək dəyərləndirirəm. DÜNYA Məktəbinin təhsil sistemi hər zaman güclü olub. Xüsusən də IB-nin məktəbdə olması bu təhsili daha da yüksək zirvələrə qaldırıb.
-DÜNYA
-Məktəbin hansı xüsusiyyətlərinə tənqidi yanaşırsınız?
-ESMİRALDA
-Düşünürəm ki, heç bir müəssisə, heç bir sistem ideal deyil və hər zaman nələrisə dəyişmək, inkişaf etdirmək üçün çalışmaq lazımdır. Son illərdə DÜNYA Məktəbində bu dəyişiklikləri gördüyümə sevinirəm.
-TOĞRUL
-Məncə yoxdur. Mən oxuduğum illərdə hansısa tənqidi, yaxud da narazı qaldığımız məsələlər meydana çıxardısa, məktəb bunu tez bir zamanda araşdırıb düzəltməyə çalışırdı.
Və elə buna görə də DÜNYA Məktəbi gün-gündən təkmilləşir və inkişaf edir.
-DÜNYA
-Rəhbər olsaydınız, DÜNYA Məktəbində nələri dəyişərdiniz?
-ESMİRALDA
-Şagirdləri əlavə proyektlərə cəlb etmək, onların maraq və bacarıqlarını kəşf etməyə daha çox diqqət göstərərdim.
-TOĞRUL
-Məncə bu böyük məsuliyyətdir. Rəhbərlik bu işdə illərdir ki, çalışır və hər şeyi hamıdan yaxşı bilir. Dediyim kimi, hər il məktəbi inkişaf etdirir və mən bu sahədə onlara inanıram. Şəxsən özüm heç nəyi dəyişmərəm...

**DÜNYA MƏKTƏBİ BİZİ BİR ÇOX MÜASİR PROBLEMLƏRƏ HAZIRLAŞDIRIB VƏ DÜZGÜN YOLA YÖNƏLDİB...**

***Toğrul***

-DÜNYA
-Seçdiyiniz ixtisas barədə nə deyə bilərsiniz?
-ESMİRALDA
-Universitetdə informasiya texnologiyaları üzrə təhsil almışam. Dünyada daha çox texnoloji inkişafın vacibliyini anladığım, burada perspektiv gördüyüm və buna uşaqlıqdan inandığım üçün bu ixtisası seçdim. İndi də Google şirkətində texnologiya sahəsində çalışıram.
-TOĞRUL
-Mən Memarlıq sahəsində çalışıram. Yəni hər cür binaların görünüşü və tikintisi, şəhərsalma proyektləri ilə məşğulam.

# DÜNYA MƏKTƏBİ ŞAGİRDLƏRDƏ MƏNƏVİ DÜŞÜNCƏNİ İNKİŞAF ETDİRMƏK TƏŞƏBBÜSÜ İLƏ SEÇİLİR...

***Esmiralda***

-DÜNYA

-Üzərində çalışdığınız layihələr sizin üçün nə dərəcədə maraqlı və əhəmiyyətlidir?

-ESMİRALDA

-Çalışdığım şirkətdə işçilərə seçimlərində sərbəstlik verilir. Bu da hər kəsə layihələrə daha maraqla yanaşmaq üçün düşünülüb, ona görə də çalışdığım hər layihəm mənim üçün çox maraqlıdır. İşimin əsası isə

YOU TUBE ilə platformadan istifadə edən böyük şirkətlər arasında bir növ körpü olub, bu şirkətlərin texnoloji tələblərini platformaya gətirməkdir.

-TOĞRUL

-Bir çox layihələrin üzərində çalışmışam. Hal-hazırda İngiltərənin London şəhərində işləyirəm və burada bir çox proyektlərlə işləyirəm. Estoniyada, Ukraynada işlərim olub. Lakin ən maraqlı və yadda qalanı Bakıdakı layihələrimizdir, çünki burada özündən bir iz qoymağa şans yaranır və şəhərin daha da gözəlləşməsinə kömək edə bilirsən. Hal-hazırda Bakıdakı "Sovetskaya" adlanan ərazidə maraqlı layihəmiz nəzərdə tutulur.

-DÜNYA

-Müəllimlərinizi necə xarakterizə edərdiniz?

-ESMİRALDA

-Onların hamısını sevirəm. Sevmədiyim müəllimim olmayıb, lakin Rəna və Könül müəllimələrimin həyatımda çox böyük rolu olub, ona görə də onların adını xüsusi vurğulamaq istəyirəm. Daimi əlaqə saxlayır, ara-sıra görüşürük. Bir də Güntəkin müəllimənin dərs üslubunu o qədər sevirdim ki, onun haqqında hələ də dostlarıma danışıram.

-TOĞRUL

-Mən bütün müəllimlərimi sevmişəm və ayıra bilmərəm. Çünki hər bir müəllimim öz fənni ilə həyatımda mühüm rol oynayıb, həm də bir çox sayda sinif rəhbərlərimi də sevmişəm.

-DÜNYA

-Bizim məktəb hansı xüsusiyyətləri ilə seçilir?

-ESMİRALDA

-DÜNYA Məktəbi şagirdlərdə mənəvi düşüncəni inkişaf etdirmək təşəbbüsü ilə seçilir. Buna görə xüsusi təşəkkür Çiçək xanıma düşür. Ümumiyyətlə, DÜNYA Məktəbinin və XƏZƏR Universitetinin təsisçisi Professor Hamlet müəllimi dinləməyi sevirəm, onun dünyaya baxışları və təhsil sistemində görmək istədiyi dəyişikliklər məni sevindirir.

-TOĞRUL

-Məktəbimiz hər bir şagirdə individual yanaşması, hər kəsə uyğun təhsildə köməyi ilə fərqlənir. Bu çox mühüm faktordur.

Digər məktəblərlə müqayisədə mən öz məktəbimizdəki təhsil sistemini çox bəyənmişəm. Bizim məktəbin abu-havasını yüksək dəyərləndirirəm, çünki bu, şagird üçün ən mühüm faktordur.

***Məncə Professor Hamlet İsaxanlının yaratdığı məktəb və universitet – belə təhsil sistemi hər şeyi göstərir. O, özünün güclü prinsiplərini burada tətbiq edərək günü-gündən inkişaf edən müəssisələr yaradıb. Bu da onun prinsiplərinin müasir problemlərə necə adaptasiya olduğunu göstərir.***



DÜNYA MƏKTƏBİNİN
TƏHSİL SİSTEMİ
HƏR ZAMAN GÜCLÜ OLUB...

*Toğrul*



PROFESSOR HAMLET MÜƏLLİMİ
DİNLƏMƏYİ SEVİRƏM,
ONUN DÜNYAYA BAXIŞLARI
VƏ TƏHSİL SİSTEMİNDƏ
GÖRMƏK İSTƏDİYİ
DƏYİŞİKLİKLƏR MƏNİ SEVİNDİRİR...

*Esmiralda*




Newcastle University
England

-DÜNYA

-Perspektivdə ölkəmizlə bağlı iş planlarınız varmı?

-ESMİRALDA

-Google global global şirkət və bütün dünyanın istifadə etdiyi məhsuldur. Ona görə də bizim işimiz hər hansı ölkəni və insan qrupunu hədəfləmir.Gördüyümüz işdən necə İngiltərədəki istifadəçilər yararlanırlarsa, Azərbaycandakı həmvətənlərim də o cür yararlanırlar. Bundan əlavə mən hal-hazırda, xüsusən Azərbaycan, Rusiya Və Türkiyədə YOU TUBE platformasının inkişafı ilə bağlı işlərlə məşğul oluram və bunun nəticələrini gələcək illərdə görəcəyimizə ümid edirəm.

Ümumiyyətlə, Azərbaycandakı insanların yaşayışına kömək edəcək, onların daha xoşbəxt yaşamasına səbəb ola biləcək əlimdən gələn hər şeyi etmək istəyirəm.

-TOĞRUL

Bəli, qeyd etdiyim kimi, memarlıq sahəsində ölkəmizə pozitiv yeniliklər gətirmək istəyirəm. Belə bir fürsət yarandı ki, mən Bakıda bir-neçə layihə üzərində işlədim və gələcəkdə Azərbaycanda memarlığı inkişaf etdirmək istəyirəm.

-DÜNYA

-Təkrar təhsil illərinə qayıtsaydınız, seçiminizdə və həyatınızda nələri dəyişərdiniz?

-ESMİRALDA

Heç nəyi dəyişməzdim. Elə buna görə də özümə xoşbəxt insan deyə bilərəm.

-TOĞRUL

-Heç nəyi dəyişməzdim. Çünki hal-hazırda hər şeylə razıyam və fikirləşəndə ki, nəyisə dəyişərdim... Bilmək olmaz həyat necə olardı, ona görə də həyatımdan razıyam.

-DÜNYA

-Arzu və planlarınız...

-ESMİRALDA

-Arzum gördüyüm işdə qabaqcıl və uğurlu olmaqdır. Yeni ideyalar və proyektlər həyata keçirmək istəyirəm. Və ən əsası da ailəmi və sevdiklərimi xoşbəxt görməkdir.

-TOĞRUL

-Arzum magistraturanı bitirmək, İngiltərədə işlərimi davam etdirməkdir. Təcrübə yığandan sonra istəyim yəqin ki, Bakıya qayıdıb, öz şəhərimdə memarlığı inkişaf etdirməkdir.

-DÜNYA

-Müsahibəniz üçün təşəkkürlər... Sizə uğurlar arzulayırıq.

-ESMİRALDA

-Biz də təşəkkür edirik. Mənə dərs deyən müəllimlərimə daha böyük təşəkkür edirəm. Məktəbimə minnətdaram...

-TOĞRUL

-Mən bayaq bir çox müəllimlərimlə görüşdüm və onlara ürək sözlərimi dedim. Biz şagirdlər uşaq vaxtı onları çox incitmişik, onlara səbr arzulayıram. Onlar bu dünyada ən əsas rolları daşıyırlar, ona görə də ürəklərində nə arzuları varsa, yerinə yetməsini diləyirəm!



# MURAD QƏNBƏRLİ



Sumqayıt Dünya məktəbi böyük uğurlara imza atmışdır. Bu uğurlardan biri də XI sinif şagirdimiz Murad Qənbərlinin ABŞ Dövlət Departamentinin maliyyələşdirdiyi FLEX proqramı çərçivəsində seçilən şagird olmasıdır. Murad ilk gəldiyi gündən öz zəkası ilə müəllimlərin rəğbətini qazanmış və onların diqqətini cəlb etmişdir. O həmçinin, məqsədi uğrunda yorulmadan mübarizə apararaq hədəfinə çatmaq niyyətindədir. Əlavə olaraq qeyd edək ki, Murad Respublika Kimya Fənn Olimpiadasının finalçısıdır.

## Onları təbrik edir, gələcək işlərində uğurlar arzulayırıq!




# ANAR RZAYEV



Anar Rzayev DÜNYA Məktəbinin IB XI sinif şagirdidir. Bu günlərdə Anar olimpiadada qalib olmaqla yanaşı, həm də Cənubi Koreyanın Daejon Şəhərində yerləşən Korea Yüksək Texnologiyalar Universitetinin Riyaziyyat və Kompyuter Elmləri fakültəsinə daxil olub.

Jurnalımızın bu səhifəsində Anarla yaxından tanış olmağınız üçün ona ayırdığımız səhifəni sizə təqdim edirik, əziz oxucular!

Mən, artıq 4 ildir ki, riyaziyyat olimpiadalarına hazırlaşıram və bu olimpiada mənim 6-cı beynəlxalq olimpiadam idi. Keçən il Balkan Riyaziyyat olimpiadasında iştirak edib bürünc medala layiq görülmüşdüm, halbuki bu tədris ilindən etibarən Cəfər Cəfərovun dərsləri və komanda olaraq çox çalışdığımızdan olimpiadada gümüş medalı hədəf qoymuşduq. Balkandan 15 gün qabaq sistemli şəkildə saat 9:00-dan 19:00-a kimi intensiv olaraq çalışırdıq. Əlbəttə ki, çəkdiyimiz zəhmət hədərə getmədi. Gümüş medal qazandım və komanda olaraq 17 ölkə arasından 7-ci yerə çıxdıq və 148 bal topladıq. İmtahanda koordinasiya, təşkilatçılıq şəffaf və obyektiv idi. İndi isə 60-cı Beynəlxalq Riyaziyyat Olimpiadasında Azərbaycanı təmsil edəcəyəm. Bu olimpiadada hədəfimiz Azərbaycanı yüksək zirvələrə qaldırmaqdır.

Mən ozümü çox xoşbəxt hiss edirəm, çünki insan məşğul olduğu sahədən həzz alırsa, bu onun ən böyük xoşbəxtliyidir. Mən neçə illərdir ki, riyaziyyat, kompüter elmləri ilə məşğul oluram və bundan həzz alıram. Bu, məni deyərdim ki, dünyanın ən xoşbəxt insanı edir.

Gələcək planlarım barədə deyə bilərəm ki, riyaziyyat elmində yeni kəşflər və tədqiqatlar aparmaq mənim ən böyük hədəfimdir. Həm Riyaziyyat, həm də Kompüter Elmləri çox dərin sahə olduğundan, o sahələrdə yeni kəşflər aparmaq ən böyük arzumdur.

## İNDİ İSƏ 60-CI BEYNƏLXALQ RİYAZİYYAT OLİMPİADASINDA AZƏRBAYCANI TƏMSİL EDƏCƏYƏM...

**BU OLİMPİADADA ƏN BÖYÜK HƏDƏFİMİZ AZƏRBAYCANI YÜKSƏK ZİRVƏLƏRƏ QALDIRMAQDIR...**



Elevator Pitch is initiated by Stuage company and aimed for school students to improve their business and presentation skills. Project allows students to present their business idea in front of the jury members coming from different corporate companies.

# ELEVATOR PITCH




Project allows 10 teams, each contains 1-2 members in it. The very first series of project was implemented in cooperation with Dunya School. In future, the tournaments between schools and universities is planned as the strategic steps of the company On March 15, 2019 the first Elevator Pitch event held in Dunya School. Among the jury members, representatives of corporate companies and governmental institutions participated. Jury members, composed of Huseyn Hasanov from Azerbaijan State Tourism Agency, Toghrul Mahmudov from Stuage company, Tural Shirinov from the Parliament of the Republic of Azerbaijan, Rashad Azizov from The Ministry of Transport, Communications and High Technologies of the Republic of Azerbaijan, Rashad Eyvazov from NextStep company and Zaur Melikov from Pasha Investments selected 3 winners after thorough discussions and careful evaluation of each presentation. 1st place - Toghrul Hasanli (project "Globike") received 1000 AZN money prize from the Stuage company 2nd place - Nargiz Najaf (project "Islimi") and 3rd place - Inji Farzaliyeva (project "JetBasket) received an opportunity to have an internship in one of the corporate partner companies of Stuage and free usage of one service of the company respectively.







# JCUMUN 2019

## A MODEL UNİTED NATİONS İN THE ROME



As part of our IB curriculum, we encourage our students to join our Dunya MUN club to develop their critical thinking skills through debating. The students participated in debates in JCUMUN and discussed world issues with their peers from different countries. One of our students, Sara Khatun Guluzade announced as the best delegate of Dunya IB School MUN team. We look forward to getting more awards in future MUN Conferences.

Dunya IB School students attended JCUMUN Conference in 2019 in Rome, Italy on February 28 and March 3. What is the importance of the MUN for school children? Model United Nations, MUN, is an extra-curricular activity in which students typically role-play delegates to the United Nations and simulate UN committees.





# *Poetik Tərcümə*

*"Məhdud çərçivələr içində xoş ahəng və gözəllik axtarışı"*

*Hamlet İsaxanlı*

**George Gordon Lord Byron** (1788-1824)

## Twighlight

It is the hour when from the bows
The nightingale's high note is heard;
It is the hour when lover's vows
Seem sweet in every whispered word;
And gentle winds, waters near,
Make music to the lonely ear.
Each flower the dews have lightly wet,
And in the sky the stars are met,
And on the wave is deeper blue,
And on the leaf a browner hue,
And in the heaven that clear obscure,
So softly dark, and darkly pure,
Which follows the decline of day,
As twighlight melts beneath the moon
away.

## Axşamçağı

Dilində nəğmələr zil şirin səslə
Bülbüllər budağa qonurlar bu an.
Ürəkdən sevənlər min bir həvəslə
Söz verib and içir, bağlayır peyman.
Suyun şırıltısı, həm həzin külək
Nəğmə bəstələyir yanıqlı, kövrək.
Güllər gözü nəmli şeh damlasından
Ulduzlar səmada sulayır meydan.
Dalğalar mavidir dərin sularda
Hər cür rəngə çalır yarpaqlar burda.
Göylər də tərtəmiz, fəqət qaranlıq
Gündüz işığına pərdə çəkilir,
Qaranlıq əriyir,
Budur Ay gəlir.

Translated by: **Shahla Nagiyeva**





Alman dili dünyada 10 ən çox danışılan dillərdən biridir. Dünyada 185 milyondan artıq insan alman dilində danışır. Əlbəttə ki, əziz şagirdlər, siz Almaniyada alman dilini bilmədən də təhsil ala bilərsiniz. Ancaq xarici dil bilikləri ilə gündəlik həyatınızı asanlaşdıra və daha tez ünsiyyət yarada bilərsiniz. Bu həm də haqqınızda müsbət göstəricilərdən biri sayıla bilər. Kimsə demir ki, alman dili asandır, lakin DÜNYA Məktəbində bu dili öyrənməyiniz üçün geniş imkanlar yaradılıb.

Hər il məktəbimizdə ALMAN DİLİ GÜNÜ keçirilir. Ölkəmizdə mövcud olan Avstriya Mərkəzinin rəhbəri Stefanie Matzer məktəbimizə gələrək alman dilinin təkmilləşdirilməsi üçün maraqlı məşğələlər təşkil edir və şagirdlər bu dildə müxtəlif mövzularla bağlı əyləncəli, elmi, bədii şəkildə qurulmuş işlərlə məşğul olurlar.

Bu il də Azərbaycan və rus bölmələrində Alman dili günü keçirildi. Tədbirdə 7-8-ci siniflər çıxış etdilər. Onlar alman dilində mahnılar ifa edərək, müxtəlif səhnələr nümayiş etdirdilər. Tədbirin sonunda viktorina keçirildi, qaliblərə hədiyyələr təqdim olundu.



















Xəzər Universiteti hər zaman öz yenilikləri və yüksək təhsililə öndə addımlayan universitetlərdən biri olub və olmaqdadır. Universitetimiz bu gün Azərbaycanda yeganə təhsil müəssisəsidir ki, təlim keyfiyyətinin yüksəldilməsi, ixtisaslı müəllim kadrının hazırlanmasında böyük işlər görür. Tələbələrin həm də həyatı bacarıqlara yiyələnmiş bir şəxsiyyət, dövlətçilik və vətəndaşlıq mövqeyinə malik olan öz peşəsinin mahir bilicisi və qabiliyyətli, çevik qərarlar qəbul etməyi bacaran mütəxəssis kimi yetişməsini təmin etməkdədir.

Xəzər Universitetində Azərbaycan dili və ədəbiyyatı, İngilis dili, Tarix, İbtidai sinif, Riyaziyyat və informatika, Fizika, Biologiya və Coğrafiya müəllimliyi ixtisasları üzrə təhsil alan tələbələr hazırda Dünya Məktəbində praktiki təcrübə keçməkdədirlər. Onlar tam bir akademik dərs ili ərzində təcrübə keçirlər. Bu isə bir illik pedaqoji təcrübə deməkdir. Universitetdən yeni məzun olmuş tələbənin bir illik təcrübə qazanması universitetimizin uğurlarından və üstünlüklərindən biridir.

Xəzər Universiteti Dünya Məktəbində tələbələr öyrəndikləri nəzəri bilikləri praktiki biliklərilə birləşdirirlər. Onlar dərslərdə müşahidələr aparır, gündəlik qeydlər götürür, məktəbin təcrübəli müəllimlərilə əməkdaşlıq edir, dərs materiallarının hazırlanmasında müəllimlərə yaxından kömək göstərir, zəif şagirdlərlə iş aparırlar.

Onlar həm də müəllim - şagird münasibətlərinin inkişaf prinsiplərinə yiyələnir, auditoriya qarşısında çıxış etməyi, müəllimlik yolunda ilk addımlarını atmağı, sinif idarəçiliyini öyrənirlər. Tez-tez məktəb müəllimləri və tələbələrlə söhbətlər aparılır, onların müvəffəqiyyətləri və nəticələri müzakirə olunur. Müəllimlər öz dəyərli məsləhətlərini verir və tələbələri istiqamətləndirirlər. Universitetimizin digər uğurlarından biri də tələbələrin işlə təmin olunmasıdır. Hər il tələbələr digər müəllimlərlə yanaşı işə qəbul müsabiqəsində iştirak etmək hüququ qazanırlar. Daha sonra müsabiqədə uğur qazanmış tələbələr işlə təmin olunurlar. Onların sayı artmaqdadır. Bu tələbələrin uğurlarını görmək, onlarla çiyin-çiyinə işləmək Xəzər ailəsi olaraq bizi çox sevindirir, qürurlandırır.



Müəllif: Sevda İsmayılova

# ŞAGİRD MÜƏLLİM ROLUNDA











Müstəqil, yaradıcı gənclər tərbiyə etmək məktəb qarşısında duran ən mühüm vəzifələrdəndir. Təlim prosesi nə qədər məqsədəuyğun qurularsa, şagirdin istedadı, tədqiqatçılıq qabiliyyəti bir o qədər də tez üzə çıxacaq və inkişaf edəcəkdir.

Hər bir şagirdin sirli, qəribə dünyasına ilkin olaraq müəllim daxil olur. Müəllim şagirdin tədqiqatçılıq bacarığını düzgün müəyyənləşdirməkdə, ona fərdi yanaşmaqda, inkişafına düzgün istiqamət verməkdə yardım göstərir.

Bəs şagirdin özü müəllim rolunda olanda necə?!

Bu yeni və maraqlı layihədir…

Layihənin məqsədi şagirdlərdə gələcəyə müstəqil düşüncəli, sərbəst fikir söyləmək bacarığı, səlis nitq qabiliyyəti, liderlik xüsusiyyətləri formalaşdırmaqdır.

Şagirdlər müasir təlim metodlarına əsaslanaraq dərsləri PROMETAN LÖVHƏDƏ keçirlər.

Dərs zamanı onlar o qədər fəallaşırlar ki, dərs deyən şagirdin müəllim olmadığını, özlərinin məktəb yoldaşı olduğunu belə unudurlar. Maraqlı cəhət budur ki, şagirdlər dərs verəcəkləri mövzunu özləri seçirlər və hər bir şagirddə məktəbi bitirməmiş müəllim olmaq həvəsi yaranır.

Dərsdə fənn rəhbərləri, müəllimlərdən ibarət münsiflər heyəti iştirak edir. Layihənin sonunda dərs deyən uşaqlar məktəb rəhbərliyi tərəfindən mükafatlandırılır.











***TƏHSİL NAZİRLİYİ, ADA UNİVERSİTETİ VƏ "MARS ACADEMY" ŞİRKƏTİNİN BİRGƏ TƏŞKİLATÇILIĞI İLƏ MƏKTƏBLİLƏR ARASINDA 2018-2019-CU TƏDRİS İLİ ÜZRƏ "FIRST LEGO LEAGUE (FLL) AZERBAIJAN" MÜHƏNDİSLİK VƏ ROBOTOTEXNİKA YARIŞI KEÇİRDİ.***

***YARIŞIN KEÇİRİLMƏSİNDƏ MƏQSƏD ÜMUMTƏHSİL MƏKTƏBLƏRİ ŞAGİRDLƏRİNİN ELM VƏ TEXNOLOGİYALARA MARAĞINI ARTIRMAQ VƏ HAZIRKİ QLOBAL PROBLEMLƏRİN ELMİ-TEXNİKİ HƏLLİNƏ TÖHFƏ VERMƏKDİR.***



# İNTO ORBİT

**BU MÖVZUDA MƏKTƏBİMİZİN İNFORMATİKA FƏNNİ MÜƏLLİMİ VƏ LAYİHƏNİN RƏHBƏRİ VƏFA VƏLİYEVADAN MÜSAHİBƏ ALDIQ.**

**-DÜNYA**

**-Vəfa xanım, layihə ilə bağlı görülən işlər barədə nə deyərdiniz?**

**-VƏFA**

**-Yarışda iştirak etmək üçün 80 məktəb müraciət etdi və onlardan ölkə üzrə 31-i qeydiyyatdan keçdi. Həmin komandaları yarışın qaydaları ilə bağlı təlimatlandırdıq. Onlara yarışda iştirak üçün FLL dəstləri paylandı.**

**-DÜNYA**

**-Yarışa qatılmaq üçün nələr etdiniz? Hansı şərtlər qoyulmuşdu və necə oldu ki, DÜNYA Məktəbi 31 seçilmiş məktəbin siyahısına düşdü?**

**-VƏFA**

**-Layihədə iştirak etmək üçün bütün səylərimizi qoyduq. Mən layihə rəhbəri kimi Gənclər və İdman Nazirliyinin keçirdiyi bir çox layihələrdə ekspert olaraq iştirak etmişdim. Bu layihəyə gəlincə düşündüm ki, niyə də bir məktəb olaraq burada iştirak etməyək?! Şagirdlərimlə çox çalışdım, 1-ci turdan keçmək üçün əlimizdən gələni əsirgəmədik. 3 ay müddətində "Starbugs" adlı komandamızla hazırlaşdıq, məşqlər etdik və sonda bu yarışa qoşulduq və 1-ci dəfə olmasına baxmayaraq ugurli çıxışlarımız oldu.**

















**-DÜNYA**

**-Yarışlara hər hansı bir devizlə qatılmaq məktəbimizdə adət halını alıb. Bu dəfəki deviziniz?**

**-VƏFA**

-Bu dəfə devizlə deyil, devizlərlə qatıldıq. Məqsədimiz komanda şəklində birlik yaratmaq idi. Devizlərimiz:

•Kəşf edək: Biz özümüzdə yeni bacarıq və ideyalar kəşf edirik.

•İnnovasiya: Biz problemləri həll edənə kimi mümkün olan bütün həllərdən istifadə edirik.

•Töhfə verək: Biz dünyamızı daha da yaxşı bir yer etmək üçün öyrəndiklərimizi tətbiq edirik.

•Hörmət edək: Biz bir-birimizə və fərqli tərəflərimizə hörmətlə yanaşırıq

•Komanda işimiz: Biz birgə işləyəndə daha güclüyük.

•Əylənirik: Biz çalışarkən əylənməyi unutmuruq - bunlardan ibarət idi. Elə devizlərə görə də uşaqlarda motivasiya yarandı, onlar xüsusi həvəslə proqram üzrə 4 bölmədə xüsusi fəallıq göstərdilər.

**-DÜNYA**

**-Layihədə iştirak sizlərə nə qazandırdı?**

**-VƏFA**

-Layihə boyu komandamla bərabər bir çox məkanlara – ADA universiteti, Binəqədi Gənclər Evinə və AZƏRKOSMOS-a səyahət etdik. Bu son ekskursiya yerimiz uşaqlar üçün çox maraqlı oldu. Çünki AZƏRKOSMOS-un əməkdaşları "Orbitə səyahət" adlı layihəmizlə bağlı bizə dəstək oldular. Ən böyük dəstəyi isə biz DÜNYA Məktəbindən aldıq.

Bunun üçün mən məkrtəbin təsisçisi Nailəxanım İsayevaya və direktoru Mərufə Mədətliyə dərin minnətdarlığımı bildirirəm. Çünki onlar hər mərhələdə bütün işlərimizlə yaxından maraqlanır və dəstək olurdular.

**DÜNYA Məktəbinin şagirdləri
Murad Rzayev, Aqşin Məmmədov,
Müslüm Əliyev və Natavan Rzayeva
layihənin qalibləri çıxaraq,
Təhsil Nazirliyinin medal və sertikatları ilə
təltif olundular.**



# ВОДА

Чтобы держаться на плаву,
не нужно особенных умений.
Лишь одно, которое даётся
каждому при рождении, -
умение держать равновесие

Вода питает всё живое,
и всё живое становится
водой, смотрит на воду, видит
в отражении себя и учится её
мудрости, безмятежности
и принятию. Течь по руслу
времени, обтекать
неразрешимое, но не
изменять себе.

# ОГОНЬ

**ОГОНЬ ДАРИТ ЗЕРНУ ЦЕЛЕУСТРЕМЛЁННОСТЬ И СТРАСТЬ, БЕЗ КОТОРОЙ У НОВОЙ ЖИЗНИ НЕ ХВАТИЛО БЫ СИЛ ПРОРАСТИ.**

**ОГОНЬ СПОСОБЕН КИСПЕПЕЛЯЮЩЕЙ ЯРОСТИ, НО УМЕЕТ ХРАНИТЬ – ИЛИ ПРОБУЖДАТЬ? – ПАМЯТЬ. ГОВОРЯТ, ЕСЛИ ДОЛГО СМОТРЕТЬ НА ЯЗЫКИ ПЛАМЕНИ, МОЖНО УВИДЕТЬ ОБРАЗЫ ИЗ ДАВНО ЗАБЫТОГО ПРОШЛОГО.**



# ВОЗДУХ

Воздух приносит и рассказывает истории – о том, как велик мир, сколько всего в нём нужно успеть, пока живёшь.

В нём и свет, и тепло, и лёгкость, граничащая с невесомость, и радость, и свобода – эфир, как называли воздух древние греки, кружит голову. «Созревшее зерно не думает о высохшем колосе». Любой цветок расцветает, чтобы сделать мир ярче.




ЗЕМЛЯ
«ЧТОБЫ СТОЯТЬ, Я ДОЛЖЕН ДЕРЖАТЬСЯ КОРНЕЙ».
ЗЕМЛЯ – ЭТО ВОЗМОЖНОСТЬ РАСТИ ДАЖЕ НА ТАКИХ КАМЕНИСТЫХ СКЛОНАХ, ГДЕ, КАЗАЛОСЬ БЫ, ЗАЦЕПИТЬСЯ НЕ ЗА ЧТО, ЗЕМЛЯ ДАЁТ РОСТКУ СИЛУ, УВЕРЕННОСТЬ И БУДУЩЕЕ.
ЦВЕТЫ – ДЕТИ ЗЕМЛИ. СРЕДИ НИХ НЕТ ДВУХ ОДИНАКОВЫХ. ВСЕ ОНИ ЖИВЫЕ, И ВСЕ ПИТАЮТСЯ ЛЮБОВЬЮ ЗЕМЛИ. БЕЗ ЛЮБВИ НЕ РАСТЁТ ДАЖЕ СОРНАЯ ТРАВА.

# ВПЕРЁД К ПЯТЁРКАМ!



Скоро грядут устные экзамены. Кто-то готовится во время уроков, кто-то не спит по ночами и выкладывается на все сто процентов. А мы решили с учениками 5-ых классов к этой задаче подойти по другому и провели занимательную игру на повторение пройденных тем. Азарт учеников и желание победить - сделали свое дело. Был повторен необходимый материал и ученики полностью готовы к предстоящему экзамену.

# СДАТЬ НА ВСЕ 100!








Революция-это…?
Повелитель Востока? Назовите его!
Кто основал Карабахское ханство?













Larry Shaw, the "Prince of Pi", invented the holiday Pi Day in 1988 while at the Exploratorium. During an off-site staff retreat in 1988, he started talking with his co-workers, like Ron Hipschman, about the mysteries of mathematical constants. Shaw came up with the idea to link pi (3.14159…), which begins with 3.14, with the date 3/14 or March 14.



The Pi Day has become the annual event for Dunya IB School students who love Mathematics and like to play Math games and demonstrate their logical abilities and mathematical skills in front of the audience. The school community prepares to this holiday with special enthusiasm as Mathematics is the language of the universe and everyone is aware of this. The competition allows the children to learn to respond to questions quickly using their logics. They learn to solve problems under pressure which is good for developing their personality. Consequently, the best players gain gifts and prizes. Every year the Pi Day is celebrated by Mathematics lovers on March 14 in honor of the mathematical constant - the pi number. This holiday was distinguished in 1987 by the physicist from San Francisco Larry Shaw.





DÜNYA MƏKTƏBİNDƏ KENQURU BEYNƏLXALQ RİYAZİYYAT MÜSABİQƏSİ KEÇİRİLDİ. MÜSABİQƏNİN KEÇİRİLMƏSİNDƏ ƏSAS MƏQSƏD İSTEDADLI ŞAGİRDLƏRİN AŞKAR EDİLMƏSİ, ONLARIN RİYAZİ BACARIQ VƏ QABİLİYYƏTLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİDİR.

KENQURU RİYAZİYYAT AZƏRBAYCAN 2019





KENQURU BEYNƏLXALQ RİYAZİYYAT MÜSABİQƏSİ 1994-CÜ İLDƏN, İLDƏ BİR DƏFƏ OLMAQLA KEÇİRİLİR.

## RİYAZİYYAT İNSAN TƏFƏKKÜRÜNÜN MUSIQİSİDİR...

Müsabiqənin keçirilməsində əsas məqsəd istedadlı şagirdlərin aşkar edilməsi, onların elmi potensiallarının inkişaf etdirilməsi və şagirdlərdə fənlərə olan marağın artırılmasına nail olmaqdan ibarətdir.

Dərsliklərdə verilmiş riyazi formulaların əzbərlənərək istifadə edilməsindən daha artığını, hər yaşa uyğun biliklərin məntiqi düşüncə sayəsində sınanması da qarşıya qoyulan əsas məqsədlərdəndir.

Yəni burada şagird hansısa əzbərlədiyi formulanı yada salmağa çalışmaqdan daha çox məsələyə fərqli yönlərdən baxmağa, beynini məşq etdirməyə, məntiqini işə salmağa məcburdur ki, sualları cavablasın.







RİYAZİYYAT BÜTÜN ELMLƏRİN AÇARIDIR

Azərbaycan bölməsinin 3-cü və 4-cü sinif şagirdləri ilə









Riyaziyyat mental və manipulyativ mərhələdə

# AÇIQ SƏMA ALTINDA RİYAZİYYAT DƏRSİ





Şagirdlərin təfəkkürü bilavasitə əyani - əməli xarakter daşıyır. Uşaqlarda təfəkkürün inkişafında didaktik oyunlar xüsusi yer tutur. Oyun şagirdləri müşahidə etməyə təhrik edir, ixtiyari qavrayışın inkişafına təkan verir.

Qavrayışla yanaşı diqqətin təkmilləşməsi prosesi güclənir.

Oyunlar üçün riyaziyyata ehtiyacımız olmaya bilər, amma sadə görünsə belə bəzi oyunlar üçün təməl riyazi biliklərə ehtiyac duyulur. Oyunlar zamanı uşaqlar problemi həll edərkən həm əylənir, həm də riyaziyyatı öyrənirlər.











**Riyazi oyunlar şagirdlərin hərtərəfli inkişafına təsir edən amillərdəndir. Bəs bu oyunların şagirdlərə faydası nədir?**

**Oyun oynama hər bir şagirdin özünəgüvən hissini artırır. Problemhəlletmə və sualları cavablandırma bacarıqları formalaşdırır.**

